QƏRAR № 10/34

# 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Böyük Quruluş Partiyasının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Böyük Quruluş Partiyası Ali Məclisinin 2023-cü il 16 dekabr tarixli iclasının Qərarı ilə səlahiyyətli nümayəndələr və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr təyin edilmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədlər Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim olunmuşdur.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, təqdim edilmiş şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək, Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində aşağıdakı şəxslər Böyük Quruluş Partiyasının səlahiyyətli nümayəndələri və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

**Səlahiyyətli nümayəndələr:**

Nazim Əlihüseyn oğlu İsmayılov
Zilfiqar David oğlu İbrahimov
Ağababa Həzi oğlu Əlizadə
Leyla İbrahim qızı Musayeva
Həsən İbrahim oğlu Həsənov
Fəxrəddin Zülfəli oğlu Sadiqov
Fariz Mehdi oğlu Quliyev
Ağaəmi Balaəmi oğlu Soltanov
Orucalı Şanavaz oğlu Nifdaliyev
Səlahəddin İzzəddin oğlu Əyyubov
Ramiz Şirindil oğlu Həsənov

**Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələr:**

İlqar Qəzənfər oğlu Mustafayev
Namiq Ziyadxan oğlu Göyüşov

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

***21.12.2023***

Azərbaycan.- 2023.- 22 dekabr, № 280.- S.9.